# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR ÜÇÜN PEŞƏ TƏMAYÜLLÜ TƏHSİLİN ƏHƏMİYYƏTİ



**Leyla Vahabova,**
*ARTİ-nin Təhsildə məzmun, kurikulum və standartlar mərkəzinin Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin baş mütəxəssisi, Emal sənayesində və Nəqliyyat və logistika sahəsində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının üzvü, Peşə və Kvalifikasiya Standartları üzrə ekspert, BƏT-in Azərbaycandakı daimi eksperti, kurikulum üzrə ekspert*
*e-mail: l.vahabova@arti.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2026.1.263*

**UOT:** 377
**Xülasə.** *Məqalədə xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün peşə təmayüllü təhsilin əhəmiyyəti araşdırılır və 11 nömrəli Xüsusi Təhsil Məktəbində "tikiş avadanlıqlarının operatoru, tikişçi köməkçisi" ixtisası üzrə yaradılmış pilot sinfin təşkili, tədris proqramının hazırlanması və ilkin nəticələri təhlil olunur. Tədqiqatda praktikyönümlü təlimin şagirdlərin psixomotor bacarıqlarının, sosial adaptasiyasının və əmək vərdişlərinin inkişafına müsbət təsiri əsaslandırılır.*

***Açar sözlər:*** *xüsusi təhsil, peşə təmayüllü siniflər, inklüziv təhsil, psixomotor bacarıqlar, peşə hazırlığı.*
***Keywords:*** *special education, vocational-oriented classes, inclusive education, psychomotor skills, vocational training.*
***Ключевые слова:*** *специальное образование, профессионально-ориентированные классы, инклюзивное образование, психомоторные навыки, профессиональная подготовка.*

Müasir cəmiyyətdə hər bir fərdin sosial həyata inteqrasiyası, iqtisadi müstəqillik qazanması və şəxsi inkişaf imkanlarını reallaşdırması üçün müəyyən bacarıq və biliklərə sahib olması zəruridir. Bu baxımdan aşağı öyrənmə səviyyəsində zəif motivasiyalı və ya fərdi inkişaf imkanları məhdud olan şagirdlərin peşə səriştələrinin formalaşdırılması və ixtisasa yiyələnməsi xüsusi əhəmiyyət kəsb edir. Onların əmək bazarına uyğun praktik bacarıqlarla təmin olunması yalnız şəxsi rifahlarına deyil, həm də cəmiyyətin sosial sabitliyinə töhfə verir.

2006-cı il dekabr ayının 13-də Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir. Konvensiyanın 24-cü maddəsinə əsasən, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil hüququnu tanıyırlar. Ayrı-seçkiliyə yol vermədən bu hüququn həyata keçirilməsi üçün iştirakçı dövlətlər bütün pillələrdə inklüziv təhsil sistemini və əlilliyi olan şəxslərin fasiləsiz təhsil almaq imkanını təmin etməlidirlər.

İştirakçı dövlətlər əlilliyi olan şəxslərin əlillik əlamətinə görə təhsildən kənarlaşdırılmamasını, onların digər insanlar kimi eyni əsaslarla, keyfiyyətli və pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin etməlidirlər.

Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili qanunvericilik, dövlət proqramları və inklüziv təhsil prinsipləri əsasında həyata keçirilir. Bu proses həm ümumi təhsil sistemini, həm də xüsusi (korreksiyaedici) təhsil müəssisələrini əhatə edir.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə sağlamlıq imkanları məhdud olanlar onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar. Təhsil imkanlarından bütün şagirdlərin bərabər faydalana



bilməsi təhsil siyasətinin əsas prinsiplərindəndir. Xüsusilə zehni potensialı məhdud, aşağı öyrənmə səviyyəsində olan uşaqların peşə bacarıqlarına yiyələnmə imkanları onların cəmiyyətə inteqrasiyası baxımından çox vacibdir.

Sağlamlıq imkanları məhdud olan uşaqların xaricdə peşə təhsili almaq yolları bir neçə əsas istiqamətdə təşkil olunur. Bu sahədə beynəlxalq təcrübə aşağıdakı prinsiplərə əsaslanır. Bir çox ölkələrdə, məsələn, *Finlandiya, Almaniya, Kanada, ABŞ-da* ***inklüziv təhsil modeli*** tətbiq olunur. Bu modeldə sağlamlıq imkanları məhdud olan uşaqlar ümumi təhsil müəssisələrində xüsusi dəstək və resurslarla təhsil alırlar. Bu, onların sosial inteqrasiyasını və peşə bacarıqlarını artırır. Bəzi ölkələrdə əlilliyi olan şəxslər üçün ***xüsusi peşə təhsili mərkəzləri*** fəaliyyət göstərir. Bu mərkəzlərdə tədris proqramları onların fiziki və psixoloji imkanlarına uyğunlaşdırılır. Məsələn, Almaniyada "Berufsförderungswerke" adlı mərkəzlər bu məqsədə xidmət edir. ***Reabilitasiya mərkəzlərində*** isə uşaqlara özünəxidmət, ünsiyyət və sadə əmək vərdişləri öyrədilir. Bu proqramlar fərdi və qrup şəklində təşkil olunur və onların peşə təhsilinə hazırlığını təmin edir.



Bir çox ölkələrdə sağlamlıq imkanları məhdud olan şəxslər üçün təqaüdlər, təhsil xərclərinin ödənilməsi və xüsusi avadanlıqlarla təminat proqramları mövcuddur. Bu, onların təhsilə çıxışını asanlaşdırır. Texnologiyanın inkişafı bir çox peşə təhsili proqramlarının onlayn şəkildə əlçatanlığı və hərəkət məhdudiyyəti olan uşaqlar üçün böyük üstünlükdür.

Azərbaycanda da sağlamlıq imkanları məhdud olan uşaqlar üçün peşə təhsili almaq im-



kanları mövcuddur. Dövlət bu sahədə *xüsusi təhsil müəssisələri yaradır, psixoloji-tibbi-pedaqoji komissiya vasitəsilə uşaqların ehtiyaclarını müəyyən edir, onların bacarıq və maraqlarına uyğun peşələr üzrə hazırlıq keçmələrinə şərait yaradır.*

Aşağı öyrənmə səviyyəsində olan zəif moti-

vasiyalı və ya fərdi inkişaf imkanları məhdud şagirdlərin peşəyə yiyələnməsi və təhsil alması bir neçə əsas səbəbə görə vacibdir:

***Müstəqil həyat bacarıqlarının formalaşması:***

*– peşə öyrənmək onlara gələcəkdə maddi cəhətdən başqasından asılı olmadan yaşamaq imkanı yaradır;*

*– ən əsas bazar tələblərinə uyğun sadə, praktik bacarıqlara yiyələnmək gündəlik həyatda özlərini təmin etməyə kömək edir.*

***Sosial adaptasiya və cəmiyyətə inteqrasiya:***

*– iş mühiti insanın ünsiyyət bacarıqlarını, kollektivdə davranış mədəniyyətini və sosial məsuliyyət hissini inkişaf etdirir;*

*– peşə sahibi olmaq onları sosial təcriddən qoruyur və cəmiyyətin aktiv üzvünə çevirir.*

***Özünəinam və motivasiya artımı:***

*– bacardığı bir işin qarşılığında mükafat (əməkhaqqı, müsbət rəy) almaq şagirdin özünəinamını artırır;*

*– "mən bacarıram" hissi zəif motivasiyalı gənclərdə belə yeni öyrənmə həvəsi yaradır.*

***İqtisadi müstəqillik və ailəyə dəstək:***

*– sadə də olsa, peşə gəlir mənbəyidir;*

*– maddi müstəqillik gəncin öz həyatına nəzarətini gücləndirir və ailəsinə də yük olmadan dəstək verə bilməsinə şərait yaradır.*

***Risklərin azaldılması:***

*– peşəsiz və işsiz gənclər işsizlik, asılılıq (zərərli vərdişlər), sosial təcrid kimi risklərlə daha çox üzləşir;*

*– peşə sahibi olmaq bu risklərin qarşısını qismən də olsa alır.*

***İstedadın və potensialın üzə çıxması:***

*– bəzən zəif motivasiyalı şagirdlər akademik fənlərdə çətinlik çəksələr də, praktik işlərdə yüksək bacarıq göstərə bilirlər;*

*– əl işləri, texniki əməliyyatlar, xidmət sahəsi və ya sənətkarlıqda uğur onları yeni hədəflərə yönəldə bilər.*

**Xüsusi qayğıya ehtiyacı olan uşaqların peşə təhsili**

Müasir təhsil sisteminin əsas prioritetlərindən biri hər bir fərdin imkanlarını nəzərə alan inklüziv və davamlı inkişafı təmin edən tədris modelinin qurulmasıdır. Məhz xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası, onların müstəqil həyat bacarıqlarının formalaşdırılması və gələcək peşə fəaliyyətinə hazırlanması bu sahədə atılan ən vacib addımlardandır. Bu kateqoriyadan olan şagirdlərin təhsilində yalnız nəzəri biliklərin verilməsi kifayət etmir. Onların inkişafı üçün praktikyönümlü, mərhələli və fərdi xüsusiyyətləri nəzərə alan təlim modellərinin tətbiqi zəruridir. Bu baxımdan peşə təmayüllü siniflərin yaradılması xüsusi təhsil müəssisələrində innovativ və perspektivli yanaşma kimi qiymətləndirilir.

**Xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə tədrisin xüsusiyyətləri**

Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla dərs prosesi standart tədris modelindən fərqli olaraq daha fərdi yanaşma, səbir, ardıcıllıq və praktiki metodlara üstünlük tələb edir. Belə uşaqların qavrama tempi, diqqət müddəti və motor bacarıqları müxtəlif olduğundan dərslər onların ehtiyaclarına uyğun planlaşdırılmalıdır. Tədris zamanı vizual nümunələr, mərhələli izahlar, praktiki tapşırıqlar və müəllim dəstəyi əsas rol oynayır.



Bu tip təhsil modellərində məqsəd şagirdin bacarmadıqlarına fokuslanmaq deyil, əksinə, bacardıqlarını üzə çıxartmaq və inkişaf etdirməkdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara düzgün istiqamət verildikdə və uyğun mühit yaradıldıqda əmək vərdişlərinə yiyələnə, məsuliyyət hissini dərk edə və özlərinə inam qazana bilirlər. Bu isə onların gələcəkdə həm ailə daxilində, həm də cəmiyyət içində daha aktiv və faydalı olmalarına şərait yaradır.

**Peşə təmayüllü siniflərin rolu və əhəmiyyəti**

Son illərdə təhsil sistemində peşə təmayüllü siniflərin (PTS) yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bu siniflər şagirdlərin erkən yaşlarından konkret bir peşə istiqamətində bilik və bacarıqlar əldə etməsinə, əmək bazarına uyğun

hazırlanmasına xidmət edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün peşə təmayüllü siniflər isə həm təhsil, həm də sosial adaptasiya baxımından ikiqat əhəmiyyət daşıyır.

***Peşə təmayüllü təhsil şagirdlərdə:***

*– əl motor bacarıqlarının məqsədyönlü inkişaf etdirilməsini;*

*– fərdi yanaşmanın vacibliyini;*

*– diqqət və səbr vərdişlərinin formalaşmasını;*

*– vizual və praktik metodların üstünlük təşkil etməsini;*

*– tədrisin mərhələli təşkilini;*

*– psixoloji dəstək və motivasiyanın gücləndirilməsini;*

*– zövq və yaradıcılıq hissinin artmasını;*

*– məsuliyyət və əmək intizamının yaranmasını təmin edir.*

Bu yanaşma şagirdlərin özlərinə inamının artmasına, əmək fəaliyyətinə marağın formalaşmasına və sosial adaptasiyanın güclənməsinə şərait yaradır. Eyni zamanda bu siniflər şagirdlərin gələcəkdə evdən işləmək, ailə büdcəsinə töhfə vermək və ya kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanlarını genişləndirir. Bu da onların cəmiyyətə yük deyil, əksinə, cə-miyyətin aktiv üzvü olmalarına zəmin yaradır.

**Layihənin davamlılığı və inkişaf perspektivləri**

*“Peşə təmayüllü siniflər”* layihəsinin yaradılması yalnız bir tədris ili ilə məhdudlaşan təşəbbüs deyil, davamlı və mərhələli inkişaf tələb edən bir layihədir. Bu tip layihələrin uğuru proqramların düzgün hazırlanmasından, müəllim heyətinin peşəkarlığından və uşaqların real bacarıqlarına uyğun istiqamət seçməsindən asılıdır. Bu baxımdan pilot layihələr xüsusi əhəmiyyət daşıyır. Pilot siniflər vasitəsilə həm tədris proqramları sınaqdan keçirilir, həm də metodiki yanaşmalar təkmilləşdirilir. Əldə olunan nəticələr gələcəkdə digər məktəblərdə də bu modelin tətbiqinə imkan yaradacaq. Beləliklə, peşə təmayüllü təhsil tədricən daha geniş auditoriyanı əhatə edə bilir.

**Tədris proqramının hazırlanması (metodologiya)**

Peşə təmayüllü siniflərin tətbiqinə yanaşmanın nəticəsi olaraq Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təklifi ilə Bakı şəhərində yerləşən 11 nömrəli Xüsusi Təhsil Məktəbində qayğıya ehtiyacı olan uşaqlar üçün məktəbdə *“Tikiş avadanlıqlarının operatoru, tikişçi köməkçisi”* ixtisası üzrə peşə təmayüllü pilot sinif fəaliyyətə başlamışdır. Sinif 8 şagirddən ibarət olmaqla birillik tədris müddətini əhatə edir. İxtisas üzrə tədris proqramı şagirdlərin yaş xüsusiyyətləri, idrak imkanları və mövcud təhsil səviyyəsi nəzərə alınmaqla ARTİ-nin mütəxəssisləri tərəfindən hazırlanmışdır. Proqramın tərtibi mərhələsində ilkin diaqnostik qiymət-



ləndirmə aparılmış, məktəbin 9-cu sinif şagirdləri ilə müşahidə və müsahibələr həyata keçirilmiş, onların psixomotor bacarıqları və praktiki fəaliyyətə meyilləri təhlil edilmişdir. Aparılan təhlillərin nəticələrinə əsasən, tədrisin məzmunu praktikyönümlü qurulmuş, fəaliyyətin mərhələliliyi və ardıcıllığı təmin edilmiş, təlim prosesində müəllimin rəhbərliyi və fasilitasiyaedici dəstəyi əsas metodoloji prinsip kimi qəbul olunmuşdur.



Tədris proqramının hazırlanması çərçivəsində fənn üzrə ixtisaslaşmış işçi qruplar formalaşdırılmış, metodiki təminatın təkmilləşdirilməsi məqsədi ilə mütəmadi ekspert görüşləri, işgüzar müzakirələr və elmi-metodik dəyirmi masalar

təşkil olunmuşdur.

**Pilot sinfin təşkili**

Yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq məktəbdə şagirdlərin bilik və bacarıqları nəzərə alınmaqla seçim aparılmış və nəticədə ən uyğun namizədlər müəyyən edilərək 10P peşə təmayüllü sinfi yaradılmışdır. Sinfin formalaşdırılmasında əsas məqsəd şagirdlərin mövcud potensialını üzə çıxartmaq, onların əmək bacarıqlarını inkişaf etdirmək və gələcək peşə fəaliyyətinə ilkin hazırlığını təmin etmək olmuşdur. Sinif üçün ayrıca otaq ayrılmış və *"tikiş avadanlıqlarının operatoru, tikişçi köməkçisi"* ixtisasının tələblərinə uyğun təşkil edilmişdir. Otaq müasir tikiş avadanlıqları, zəruri texniki alətlər, ölçmə və kəsmə vasitələri, həmçinin tədris prosesində istifadə olunan digər ləvazimatlarla tam təmin olunmuşdur. Bütün bunlar da şagirdlərin praktik məşğələlər zamanı təhlükəsiz, rahat və səmərəli şəraitdə çalışmasına imkan yaratmışdır. Bu addım məktəbdə peşə təmayüllü təhsilin inkişafına mühüm töhfə olmaqla yanaşı, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin gələcəkdə əmək bazarına uyğun bacarıqlara yiyələnməsi baxımından da əhəmiyyətli hesab olunur.



**Praktiki təlimin təşkili və ilkin nəticələr**

Ötən ilin dekabr ayında ARTİ-nin əməkdaşları tərəfindən 11 nömrəli Xüsusi Təhsil Məktəbində fəaliyyət göstərən peşə təmayüllü sinfə baxış keçirilmiş, görüş zamanı şagirdlər yüksək motivasiya və maraq nümayiş etdirərək hazırladıqları praktik işləri təqdim etmişlər. Onlar müəllimin rəhbərliyi və metodiki dəstəyi ilə parça üzərində lekal vasitəsilə ölçü götürmüş, önlük forması çəkmiş və onu kəsərək overlok maşınından istifadə etməklə məmulatın kənarlarının emalını icra etmişlər. Qeyd edək ki, praktik fəaliyyətə başlamazdan əvvəl hər bir texnoloji mərhələ müəllim tərəfindən ətraflı izah olunmuş, təhlükəsizlik qaydaları və əməliyyat ardıcıllığı nümayiş etdirilmişdir. Bu yanaşma şagirdlərin texnoloji prosesləri düzgün qavramasına, bacarıqlarının sistemli şəkildə formalaşmasına və təlimə marağının artmasına müsbət təsir göstərmişdir.

**Gözləntilər və gələcək hədəflər**

Aparılan müşahidələr onu göstərir ki, praktikyönümlü peşə təlimi xüsusi qayğıya ehtiyacı olan şagirdlərin diqqət səviyyəsini yüksəldir, məsuliyyət hissini gücləndirir, sosial ünsiyyət bacarıqlarını inkişaf etdirir və özünəinamı artırır. Əldə olunan nəticələr peşə təmayüllü siniflərin xüsusi təhsil müəssisələrində tətbiqinin yalnız tədris baxımından deyil, eyni zamanda pedaqoji və sosial adaptasiya baxımından da səmərəli və məqsədəuyğun olduğunu təsdiqləyir.

**Nəticə.** Bu layihələr onu göstərir ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların potensialı böyükdür, onlara sadəcə inanmaq, imkan yaratmaq, və düzgün yanaşmaq, dəstək olmaq və yol göstərmək kifayətdir. Bəlkə bu kiçik tikiş ustalarının arasında gələcəkdə öz işini quran, kiçik sahibkar kimi tanınan şəxslər də olacaqdır. Ən əsası isə onlar bir ixtisasa sahib olaraq özlərinə və cəmiyyətə faydalı olmaq hissini yaşadacaqlar. Ümid edirik ki, bu pilot layihə uğurla nəticələnəcək və şagirdlər PTS tələblərinə uyğun olaraq ixtisaslarını bitirib sertifikat alacaqlar. Əldə etdikləri bilik və bacarıqlar onlara gələcəkdə ev şəraitində işləmək, sifarişlər qəbul etmək və ya peşə fəaliyyətinə başlamaq imkanı verəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf Proqramının (2005–2009-cu illər)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 fevral tarixli, 20 nömrəli Qərarı.

2. 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. 14 dekabr 2017.

3. Məmmədzadə R., Abdullayev A., Kərimova F., Cabbarov R., Rəsulov S., Quliyev Ə. Təhsil sisteminin idarə olunmasının pedaqoji-psixoloji problemləri. Bakı, 2011.

4. Paşayev T. Korreksion pedaqogikanın müasir məsələləri. Bakı, ARTPİ, 2012.

5. Əliyeva R. İnklüziv təhsil. (məktəbəqədər təhsil pilləsi üçün metodik vəsait). Bakı, 2013.

6. Hüseynova N. İnklüziv təhsil. Bakı, 2014.

7. Kərimova E., Dostuzadə D. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi. Bakı, 2016.

8. Kərimov Y. Təlim metodları. Bakı, 2007.

9. Davudova A. İnklüziv təhsil üzrə metodik vəsait. Bakı, Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi, 2010.

10. Daniel E., Stafford K. Xüsusi hazırlıq siniflərin təşkili. ACİ-YF, Addım-addım proqramı, Bakı, "Mütərcim" nəşriyyatı, 2001.

**L.Vahabova**

## The Importance of vocationally-oriented education for children with special needs

**Abstract**

The article examines the importance of vocational-oriented education for students with special needs and analyzes the organization, curriculum development, and initial results of a pilot class established at Special Education School No. 11 in the specialty "Sewing Equipment Ope-rator, Assistant Tailor." The study substantiates the positive impact of practice-oriented training on the development of students' psychomotor skills, social adaptation, and labor skills.

**Л.Вахабова**

## Значение профессионально-ориентированного образования для детей, нуждающихся в особой заботе

**Аннотация**

В статье рассматривается значение профессионально-ориентированного образования для учащихся с особыми образовательными потребностями, а также анализируются организация, разработка учебной программы и первые результаты пилотного класса, созданного в Специальной школе №11 по специальности «оператор швейного оборудования, помощник швеи». В исследовании обосновывается положительное влияние практико-ориентированного обучения на развитие психомоторных навыков, социальной адаптации и трудовых умений учащихся.